2. "MÜXBİR"İN ULDUZ DEBÜTÜ

a) Yazıçı Elçin Əlioğlu jurnalist olanda

Müasir ədəbi mühit üçün ədəbi faktlarla xarakterizə olan adlar var. Əlbəttə, zamanı, dövrü adlar xarakterizə etmir. Adların arxasında dayanan ədəbi simaların yaratdıqları əsərlər zamanın əsas göstəricisinə çevrilir.

Ədəbi mühitimizin Süleyman Rəhimov, Əli Vəliyev, Mirzə İbrahimov, Mehdi Hüseyn, İlyas Əfəndiyev, İsmayıl Şıxlı, Qılman İlkin... kimi böyük nəsr ustadlarının yaratdıqları nəsr ənənələrinin yaşarlığını təmin edən 80-cilər dəbi nesli bu gün mənəvi düşüncəmizin əhatəsində görünən davamçıları var. Və bu davamçıların sırasında görkəmli nasir, tanınmış ədəbiyyatşünas alim Elçin Məhrəliyevin xüsusi yeri var.

Elçin Məhrəliyev ədəbiyyata jurnalistikadan gələn də, onun bədii nəsrə keçid dövrü uzun çəkməyib. Hələ jurnalistlik dövründə ilk uşaq hekayələrini publisistik üslubda sənədli nəsr əsərlərini tezliklə araya-ərəyə gətirib.

Əlbəttə, ədəbi mühitimiz Elçin Məhrəliyevi (indi onu daha çox nasir Elçin Əlioğlu kimi tanıyırıq) "90-cı illər", "İttiham" romanlarına, "Yurd yeri" pyestamaşasına görə tanıyır. Elçin zamanla nəfəs alan sənətkar olduğu üçün onun yaradıcılığında şahidi olduğu zamanın obrazı daha qabarıq görünür. "General Məhəmməd Əsədov"romanı bu baxımından xüsusilə təqdirə layiqdir.

Yazıçıların bünövrədən yazıya doğru yolu müxtəlif tərəflərdən gələ bilər. Amma bu yol hayatdan keçməlidir. Görünür, yazıçı Elçin Əlioğlunu (jurnalist Elçin Məhrəliyevi) həyatla doğmalaşdıran, həyatla nəfəs alan bir sənətkar kimi formalaşdıran əsas keyfiyyət elə onun həyatı tapınaq seçməsidir. Bəli, onun üçün əsas istinad mənbəyi həmişə həyat olub.

Elçin Məhrəliyev jurnalistik fəaliyyətinə ilk gənclik çağlarından, əgər belə demək mümkünsə, elə tələbəlik illərindən başlayıb. Söhbət 70-ci illərin vicdanı mühitindən gedirsə, onu da deməliyik ki, bu dövrdə hər bir müəllim öz yetirməsini, istedadlı tələbəsini özünün əsəri hesab edirdi. Bu mənada Elçin Məhrəliyev də istedadı ilə tez parlaya bilmişdi və elə parlayan istedadı ilə də müəllimlərinin diqqətini çox tez cəlb etmişdi.

Dövrün şahidi kimi mən özüm də bir həqiqəti olduğu qədər deməyə özümdə cəsarət tapıram. 70-ci illərin axırlarından başlayaraq 80-ci illərin ortalarına qədər "Azərbaycan gəncləri" qəzetinin ən populyar imzalarından biri də Elçin Məhrəliyev adı idi. Əlbəttə, bu adla mənə birinci növbədə mənəvi doğmalıq bağlayır. Həmin illərdə "Azərbaycan gəncləri"nə göndərdiyim yazıları Elçin Məhrəliyev xüsusi rəğbətlə qarşılayırdı. İndi, az qala 40 ildən sonra həmin zamana qiymət vermək baxımından E.-Məhrəliyevin fikrini belə şərh edərdim: İstedad kimsənin paxıllığını çəkmir. Sözü bilən, söz yaza bilən hər bir müəllif istedadla yazılmış 5-10 cümləlik xəbərdə də müəllifin kimliyi haqqında təsəvvürə malik ola bilər. Elçin Məhrəliyev məhz bu tipli müəlliflərdən, yanaşması ilə öz istedadını uyğunlaşdıran qəzetçilərdən idi.

80-ci illərin əvvəllərindən rayon qəzetində çalışan bir əməkdaşa Elçin Məhrəliyevin "Azərbaycan gəncləri" qəzetinden zəng edib onun yazısını təqdir etməsi nadir hadisələrdən sayılırdı. Demək, istedad, mənəvi toxluq, təbii söz gücünə malik olmaq Elçində elə ilk gənclyiindən özünü göstərib. Və burada, nəhayət, daha bir həqiqətin üzərinə gəmək üçün imkan yaranır.

Gənc jurnalist, 80-ci illərin əvvəllərində yazıları ilə mətbuatda görünən, ən başlıcası, müəllimlərinin ümidlərini doğruldan Ulduz İmanovanın Elçin Məhrəliyevi obraz seçməsi qətiyyən təsadüf ola bilməzdi. Əsas səbəb odur ki, Ulduz özü də istedadlı idi. Müəllimləri istəyirdi ki, onun qələmini tezliklə cilalanmış görsünlər. Müəllimləri istəyirdi ki, Ulduz İmanova kimdən, nədən yazmağı daha tez məmimsəsin.

Yazı üçün ideal əsas şərtdir. Yazıda kimin haqqında danışırsansa, gərək cəmiyyət həmin şəxsi qəbul edə bilsin. Cüzi bir şübhə, cüzi bir dumanlı mənzərə obrazı qapsayırsa, onda Sovet dövrünün şəkkaklıq mühitində həmin obraz üzərinə düşən işığın hamısı qapanırdı. Hər halda Elçin Məhrəliyev gənclyiino bəxmayaraq, zamanının işıqlı obrazı idi. Görünür, elə bu səbəbdən də gənc jurnalist Ulduz İmanovanın Elçin Məhrəliyevi obraz seçməsi qətiyyən təsadüf ola bilməzdi. Əsas səbəb odur ki, Ulduz özü də istedadlı idi. Müəllimləri istəyirdi ki, onun qələmini tezliklə cilalanmış görsünlər. Müəllimləri istəyirdi ki, Ulduz İmanova kimdən, nədən yazmağı daha tez məmimsəsin.

Belə qəzetləri oxuyanda, yazılar haqqında düşünəndə bilirsən ki, hər gün gördüyün adamlar arasında kimisə görmamisən, kimisə duymamısan...". Adama elə gəlir ki, Ulduz İmanova bu cümələri yazana qədər dəfələrə Elçin Məhrəliyevin yanına gedib qayıdıb, onunla söhbət edib, onunla dilləşib, bir sözlə, xayalən tərəddüdlərini həll edib qurtarıb.

Yeqin ki, bütün istedadlı jurnalistlər üçün yol elə bu cür tərəddüdlərdən keçir. Ulduz da Elçin Məhrəliyev obrazına elə həmin ecazkar kəpənək obrazından gəlir. Və özü də çox təbii şəkildə. Necə tanıyırsa, necə düşünrsə, onu təsəvvüründə necə görmək istəyibsə... bir sözlə, Elçin Məhrəliyevin jurnalist obrazına onun həyatdakı cazibəsi ilə gəlib: "...Günlərin bir günü professor Famil Mehdi ixtisas kursundan mühazirə oxuyanda dedi ki, Elçin Məhrəliyevin gənclərin həyatında olan yazılarını oxuduqca hardasa güclü bir həsrət səni keçmişə çəkir. Bu sevinci də, fərahi də, həyəcanı da sanki özün keçirmisən. Bu sətirlər də elə sən yazdıqlarındır. Və düşünürsən ki, bu kəlmələrin heç biri yerindən tərpənə bilməz. Axı, hər kəlmə sənin qəlbinin parasıdır...". Göründüyü kimi, gənc jurnalist - hələ jurnalistikanı ancaq romatika kimi qavrayan, bəlkə də jurnalistik duyğularını tərəddüdlərdən xilas edə bilməyən Ulduz İmanova seçdiyi ədəbi qəhrəmanı lə qarşılaşma məqamına qədər necə böyük tərəddüd sədərinə aşıb.

Axır ki, bütün mənəvi-psixoloji sədləri keçərək ədəbi qəhrəmanı ilə üz-üzə gəlir: "...Birinci suali verdi.-Sizcə mənim barəmdə yazmağa dəyər? Əyi, bu jurnalistlər də sual vermə yə o qədər öyrəyibler ki... Yəqin mənim sözlərimi "Gündəliyinizdəki" kimi izah edirsiniz, "Bilirsiniz, ona görə ki, dünyada bütün peşə sahiblərindən fərqli olaraq adamlar arasında, açılı-şirinli günlərinin şahidi oluruq. Yox, biz təkcə şahidi olmuruq, həm də oxuyuruq. Ürəkdən keçənləri də, gözlərə yaxınları da. bunlar hələ azdır. Biz qəhrəmanlarımızın həyacanlı, sevinci, əsəbi günlərini yaşayırıq. Gör neçə ömür eləyir?.. Qəribədir, mən uşaqlıqda elə bilirdim dünya elə Ağdamdan, doğma Güllücədən başlayır, orada da qurtarır. Sən demə insan qəlbi böyük imiş... mən bunu sonralar bildim. Ağdamdakı "Gənc qələmlər" ədəbi birliyinə ayaq açandan, ADU-nun jurnalistika fakültəsinin tələbəsi olandan sonra"...Bir də "Gündəliyinizdə" bu sətirlərə rast gələməsəm belə mən bunları sizin gözlərinizdən də oxuya bilərdim. Axı, jurnalist olmaq arzusu ilə bir tələbə üçün bu, bir o qədər çətin deyildi...". Bu qeydlərin içində dəfələrlə təkrar olunana "gündəliyinizdə" ifadəsinə rast gəlirik. Doğrudur, həmin ifadənin bir çox hallarda kimə aid olduğu və kimin gündəliyindən söhbət getdiyi o qədər də bilinmir. Amma hiss olunur ki, jurnalist ədəbi qəhrəmanının gündəliyi ilə də maraqlanıb. Və bəzi məqamlarda həmin gündəlikdən əxz etdiyi fikirlərdə öz düşüncələrinə aydınlıq gətirməyə çalışır. Bir sözlə, Ulduz İmanova bu qeydlərində hələ gənclkən ustadlıq səviyyəsinə qalxmış jurnalistdə özü arasındakı məsafə fərqini də təyin edə bilir. Bu da onu göstərir ki, Ulduz İmanova hələ gənclkən yaradıcılıq tramplinin hansı çətinlikləri dəf etməli olduğunu qavraya bilib.

Ulduz bu qeydləri qələmə alanda çox gənc idi. Və əlbəttə, yazısı üçün ədəbi qəhrəman seçdiyi Elçin Məhrəliyev də çox gənc idi. Amma bəlkə də müəllimlərinin təklifi ilə Elçin Məhrəliyevin istedad izinə çox dəqiq düşmüşdü. O, yarı yoldan da qayıda bilərdi. Axı Elçin Məhrəliyev elə bu gündən də o qədər də ünsiyyətcil deyil. Amma Ulduzdakı jurnalist inadkarlığı ona güc verib ki, o seçdiyi ədəbi qəhrəmanı axıracan təqdim edə bilsin. Öz yazısında Elçin Məhrəliyevi təkcə jurnalist kimi yox, həm də gənclər və yeniyetmələr üçün maraqlı yazılar müəllifi kimi də təqdim edir. Beləliklə, biz bu gün məşhur olan yazıçı Elçin Məhrəliyevin bir kimsəyə tanış olmayan tərcümeyi-halının çox maraqlı məqamları ilə elə Ulduzun yazısı ilə tanışlıq imkanı tapırıq: *"Bəlkə də gənc jurnalist duymuşdu ki, onun 1979-cu il Beynəlxalq Uşaq ilində Azərbaycan Jurnalistlər İttifaqı idarə heyəti ilə "Azərbaycan gəncləri" qəzeti redaksiyasının birgə keçirdiyi yaradıcılıq müsabiqəsində üçüncü mükafata layiq görüldüyünü çoxdan bilirəm. Onu da bilirəm ki, bu yaxınlarda "Gənclik" nəşriyyatı onun "Dəəəl qızı" kitabçasını bəlacalara təqdim etmişdir. 1980-ci ildə Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən buraxılmış "Al bayraqlı respublikam mənim" adlı kitaba daxil olunmuş "Çoban Boran" oçerkini, kim bilir, bəlkə birinci elə mən oxumuşam?.. M.Yaqubovla müəllifi olduğu "Vətən bizim şöhrətimiz..." ("Gənclik" nəşriyyatı) oçerkər kitabı ilə, yenə həmin nəşriyyatın 1978-ci ildə buraxdığı "Lenin komsomolu mükafatlı laureatları"na daxil edilmiş yazılarıyla da tanışam. Bu yazılarda yüğcamlıq, yüngülcə yumorlulıq, inandırıcılıq var. Duyursan ki, müəllif şəhərmənanın peşəsinin sirlərivlə tanış olub, bu peşənin gözəllivini oxucusuna çatdırmaq üçün əlindən gələni əsirgəməyib".*

(Davamı 5-ci səhifədə)

2. "MÜXBİR"İN ULDUZ DEBÜTÜ

(Əvvəli 4-cü səhifədə)

Söz yox, bəzi oxucular bu qeydlərin içərisində müəyyən terminlərə, zamanı xarakterizə edən ifadələrə rast gələndə dodaqlarını da büzə bilərlər. Amma unudurlar ki, "Lenin komsomolu" mükafatı laureatı hər kimsəyə verilmirdi. İndiki bir çox hallarda xüsusi əhəmiyyət kəsb edən pul və korruəsiya elementləri onda yox idi. Mükafatın adı olmasa belə xarakterizə edə bilər, ancaq mükafat istedada verilirdi, istedadla yazılmış əsərin müəllifinə verilirdi.

Gənc müxbir, gələcəyini jurnalistika ilə bağlamış Ulduz İmanova gənclkən ustadlıq haqqına çatmış Elçin Məhrəliyevi əsərləri ilə, ədəbi qəhrəmanları ilə və ən başlıcası, müasirlərinin içərisində təqdim edir: *"Elm və təhsil müəssisələri şöbəsində yaradıcılıq günündə olanda onun xatirat dəftərini vərəqləməyimə icazə verməsini xahiş etdim. Orada oxudum ki, E.Məhrəliyevin oxucuların xoşuna gələn yazıları az deyil. "Dünyaya gəlmişəm ki..." oçerkində Şumqayıtdakı bir nömrəli trestin on səkkiz nömrəli tikinti idarəsində komsomolçu-gənclər briqadasının başçısı Fərmanın dəxili aləmini ovuc içi kimi aşıb oxucu qarşısında. "Ötən baharın əbədi xatirəsi", "Ömür kitabından səhifələr", "Daha yazma, Tamella!", "Gərəksiz diplom, yoxsa qayğısızlıq" kimi məqalələr də maraqlı məsələlərə toxunulur".* Göründüyü kimi, burada Elçin Məhrəliyevin qələminin kəsər də, sözünün sərrastlığı da, prinsipallığı, əqidə bütövlüyü də elə onun yazılarının sərlövhələri ilə də görünür.

Həqiqətən, bu gün Elçin Məhrəliyevin jurnalistikanın hansı dövüş mövqelərindən keçdiyini təsəvvür etmək üçün Ulduz İmanovanın fakt olaraq gətirdiyi yazı başlıqlarına diqqət etmək kifayət edir.

Elçin təbiət etibarı ilə sakit, uzaq da olsa hədəfini görən, ancaq maneələri ustalıqla dəf edə-edə hədəfinə yaxınlaşan şahmatçıya daha çox bənzəyir.

O dövrün qüdrətli jurnalistləri vardı. Onlar istedadlı gəncləri görür, tanıyır, ən başlıcası, inkar etmirdilər. Bu mənada, Ulduz İmanovanın 40 il bundan əvvəl qədəm aldığı bu qeydlərində çox ibrətli məqamlar var. Bu yöndən o vaxtkı baş redaktorun Elçin haqqındakı düşüncələri nə qədər obyektiv və uzaqgörən anlamda görünür: *"1981-ci ildən başçılıq etdiyi elm və təhsil müəssisələri şöbəsi həmişə mənəvi tərbiyə məsələlərinə diqqət yetirməyə çalışır. "Azərbaycan gəncləri" qəzetinin redaktoru Yusif Kərimov onun işindən ürək dolusu danışdı: "Elçindən yazmağa dəyər. Elə belə də qeyd edərsiniz. Başçılıq etdiyi şöbə maraqlı problemlərə toxunur. Ancaq necə jurnalist olduğunu qoy onun yazıları desin. O, 1978-ci ildə gənc jurnalistlərin Moskvada keçirilən Ümumittifaq müşyirəsinin, bu il isə Azərbaycan Jurnalistlər İttifaqının VI qurultayının nümayəndəsi olub".* Bəli, belə təqdirlər adamın qara qaşına, qara gözünə görə ona layiq görülmürdü. Yalnız əməl, iş, mənəvi keyfiyyətlər əsas verirdi belə irəliləyişlər üçün.

Əlbəttə, biz hələ Elçin Məhrəliyevdən danışırıq. Bu o Elçin Məhrəliyevdir ki, hələ gənclkən işdə nə qədər səliqəli, sahmanlı idisə, doğmalar arasında da bir o qədər öz harmoniyasını qoruyub saxlayırdı.

Ulduz İmanova yazısının əvvəlində yaxşı bir psixoloji sualla qarşılaşır: Məndən yazmağa dəyərmi? Və yazısının sonunda elə həmin psixoloji məqamın özünə gələ bilir: *"Bəli, deyəsən sualınıza cavab tapıram..."Elçin evdə sadə, mehriban, səmimi olduğu kimi, iş yerində də yoldaşlarının dediyinə görə bələdir. Mənə və yazılarında da bu duyurlur..." Mən elə bilirdim ki, həyat yoldaşı Xuraman bu sözlərdə sonra "şikayətlənəcək". Deyəcək ki, "Azərbaycan gəncləri" qəzeti redaksiyası ilk komsomol təşkilatının katibi, həmkarlar ittifaqı təşkilatı təftiş komissiyasının sədridir. Hələ bu ictimai işlərdən savayı xxxusuz gecələr, yazmaq, yaratmaq... Yox, amma elə olmadı. O dedi ki, düzdür, çox işləyir, onun öz dünyası, öz aləmi var. Heç vaxt Elçini o aləmdən ayırmağa ürəyim gəlmir".* Yaxşıdır. Burada həssaslıq duyulur. Yaradıcı mühiti qiymətləndirmək gücü görünür. Haqiqətən, hər hansı bir yazıçının, yaradıcı adamın mənəvi mühiti onun meyarları ilə uyğun gəlmirsə, o yazıçı üçün həyat son dərəcə əlavə problemlər meşəsinə çevrilir.

Dövrün sərt jurnalist meyarlarını Ulduz İmanova kiçik bir məqalədə yazıçı cəsarəti ilə dağıdır. O, jurnalist yazısına özünün yazıçı mövqeyini də gətirə bilir.

Ancaq hər hansı bir müdaxilə həmişə uğurlu olmur. Görünən hadisəyə münasibətdə müdaxilə edənin xüsusi hazırlığı olmalıdır. Bunun üçün müdaxilə etməsinin səbəbi, mahiyyəti açıqlanmalıdır. Yalnız o zaman müdaxilə qanunauyğun təsir bağışlayır və müdaxilə edən rəğbətlə qarşılanır.

Ulduz İmanova Elçin Məhrəliyevin yazıçı psixologiyasından çox onun jurnalist düşüncəsinə işıq salmaq üçün yaddaşından baza kimi istifadə edir: *"Keçən il fakültəmizdə qəzetin redaksiya heyəti ilə görüş zamanı sizin çıxışınız yadımdadır: "Biz gənc jurnalistlər həmişə axtarmaq, kəşf etmək, ən yaxşı qəhrəmanımızı tapmaq arzusu ilə yaşayırıq. 1976-cı ildən, redaksiyada işə başlayandan qəzetin yaradıcılarından daim öyrənməyə çalışıq. Həm də zamandan ayrılmışıq, icitmai quruluşdan ayrılmışıq. Meyarlar tamam dəyişib. Ölçülər maddi kriteriyalarla daha çox hesablaşır. Ancaq Ulduzun gənc jurnalistlə söhbətlərindən aldığımız təəssürat sağlam mənəvi mövqeyi ilə bu gün də bizi düşündürür və diqqətimizi cəlb edir: "...Elə indicə şöbənin əməkdaşları qeyd etdilər ki, onlar sizi, səmimi, sadə, lakin çox tələbkar yoldaş kimi tanyırlar. Tələbə ömrünün şirin duyğularını sizinlə birlikdə yaşayan Adil Atakişiyev çox şey danışdı. Sizdən öyrənməyə çalışdığından, partiyanın qarşıya qoyduğu vəzifələrə ürəklə yanaşdığınızdan, 1981-ci ildə Azərbaycan Jurnalistlər İttifaqı idarə heyətinin "On birinci beşilliyin birinci ilində sosializm yarışının ən yaxşı işıqlandırılması üçün" keçirdiyi yaradıcılıq müsabiqəsində ikinci mükafata layiq görülməyimizdən... Amma ən yaxşı sözü qəzetlər deyib. Sizi ovsunlayan kağızlardakı yazılarınız, sözlər..."*. Burada bir məqam da diqqətimi çəkir. Gənc jurnalist Ulduz İmanovanın ədəbi qəhrəman kimi xarakterizə etdiyi gənc jurnalist Elçin Məhrəliyevin sağlam təbiətinə xüsusi ehtiramla yanaşma, onun tapındığı dəyərləri əsas həyati dəyərlər kimi qəbul etmək... zənnimcə, bunlar qibtə hissindən irəli gələn keyfiyyətdir. Yəni Ulduz gələcək jurnalist kimi silahlanmasında özündən əvvəlki daha müsəllah əsgərdən ibrət götürmək istəyində israrlıdır.

Son nəticədə gənc jurnalist Ulduz İmanova yeni Elçin Məhrəliyevin öz sözünə tapınır: *"Bu yazıların birində yaxşı demisiniz: "Mən dünyaya yazmaq üçün gəlmişəm. Dünyaya gəlmişəm ki...".* Göründüyü kimi, cümləni gənc jurnalist yarımçıq kəsir və həmin cümləni tamamlamağı oxucuarın ixtiyarına buraxır, qoy kim necə istəyir düşünsün. Zənnimcə, həmin yarımçıq cümlədən sonra gələn mahiyyət Ulduzun idealıdır. Yəni bu dünyaya gəlmişəm ki, bütün qanrlıqların mahiyyətinə işıq salım. Yəni bu dünyaya ona görə gəlmişəm ki, həqiqətin tərəfində durum.

Bir jurnalist üçün həqiqətin tərəfində durmaqdan üstün hansı istək ola bilər? Qoy bu sual da bizdən gələcəyə ərməğan olsun.

Ulduz İmanovanın gənc jurnalist Elçin Məhrəliyev haqqında yazdığı "Dünyaya gəlmişəm ki" başlıqlı qeydləri "Müxbir" jurnalının fevral 1983-cü il tarixli sayında çap olunub.

Düz bir ildən sonra 40 il olacaq.

Bəs bu 40 illik yolu yazıçı Elçin Əlioğlu, bir qədər fərqli ifadə etsək, jurnalist Elçin Məhrəliyev necə keçib? Onu gənc və istedadlı jurnalist kimi 40 il bundan əvvəl titrək qələmi ilə yazıya gətirən Ulduz İmanova artıq həyatının 70 yaşına çatmış bir sənətkar kimi necə görür? Gördükləri onda qürur hissi doğura bilirmi?

Şübhəsiz, hər birimiz, xüsusilə mətbuatla bağlı olan yazarlar gənclik çağlarımızda həmyaşıdlarımız kimi gördüyümüz, müşahidə etdiyimiz ədəbi qəhrəmanlarımızı ən xoş duyğularla xatırlayırıq. Xüsusilə etimad doğrulubsa, haqqında danışdığımız ədəbi qəhrəmanlarımız zəhmətləri və istedadları ilə şöhrət qazanıblarsa, demək, səhv etməmişik. Şübhəsiz, o vaxt gənc jurnalist Ulduz İmanova, bu gün tanınmış yazıçı, istedadlı nasir kimi yazıb-yaradan Ulduz Qasım Elçin Məhrəliyevin yaradıcılıq yolundan da xəbərdardır. Sadəcə oxucular üçün bir qədər ətraflı məlumat vermək yerinə düşərdi.

Elçin Əlioğlu Mehrəliyev 18 may 1952-ci ildə Ağdam rayonunun Güllücə kəndində doğulub. İndi yüksək nüfuza malik alim kimi tanınır. Filologiya elmləri doktorudur. İstedadlı yazıçı-publisist kimi oxucular arasında sevilən müəlliflərdəndir. O, kifayət qədər zəngin həyat və yaradıcılıq yolu keçib. Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində təhsil aldıqdan sonra 1976-91-ci illərdə "Azərbaycan gəncləri" qəzetində müxbir, şöbə müdiri, redaktor müavini olub. 1991-92-ci illərdə Prezident Aparatında Mətbuat üzrə bölmənin müdiri, Mətbuat Xidməti rəhbərinin müavini, 1993-2001-ci illərdə Milli Məclisin mətbuat katibi, spikerin köməkçisi kimi aktiv fəaliyyət göstərib. 2001-2004-cü illərdə "Maarifçi" qəzetinin və "Advokat" jurnalının baş redaktoru vəzifələrində işləyib. 2005-ci ildən etibarən AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda çalışır. Müasir Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri olub. Hazırda Mətbuat tarixi və Publisistika şöbəsinin aparıcı elmi işçisidir.

İlk kitabı 1978-ci ildə nəşr olunub. Sonralar da ədəbi-publisistik yaradıcılığını davam etdirib. Ancaq onun ədəbi-elmi fəaliyyəti iki istiqamətdə daha böyük uğurlarla nəticələnib. Birincisi, Elçin Məhrəliyev yazıçı kimi tanınır. Dəyərli romanların, povestlərin, hekayələrin müəllifidir. "Pərvin" povest və hekayələr 1989, "İttiham" roman 1991, "Hər kəs öz taleyini yaşayır" pyeslər, hekayələr, məqalələr 1998, "90-cı illər" roman 2004, "Tale döyüşü" 2011 - ümumilikdə 19 kitabı nəşr edilib. Məşhur "Yurd yeri" televiziya filminin ssenari müəllifidir.

Elçin Məhrəliyev həm də nüfuzlu tədqiqatçı alimdir. Bir sıra dəyərli elmi tədqiqat əsərlərinin, monoqrafiyaların müəllifidir. "Müharibə və ədəbiyyat" 2000, "İnsana poetik, publisistik və elmi baxış" 2001, "Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu: ideya və sənətkarlıq məsələləri" 2008, "Qarabağ folklor mühiti: uzaq keçmişimizdən bu günümüzə qədər" 2008, "Zaman və ədəbiyyat" 2009, "Azərbaycan nəsr və dramaturgiyasında Qarabağ mövzusu" 2012... kimi çox dəyərli monoqrafiyaların müəllifidir. O, 2001-ci ildə "Qarabağ uğrunda mübarizə və 90-cı illərin Azərbaycan ədəbiyyatı" mövzusunda dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi alıb. 2012-ci ildə isə "Azərbaycan nəsr və dramaturgiyasında Qarabağ" mövzusunda elmi işini müdafiə edərək filologiya elmləri doktoru adını almışdır. Onun həyat və yaradıcılıq fəaliyyətindən bəhs edən "Soraq kitabçası" (2002) nəşr edilib. Bu məlumatlar açıq ensiklopediyadan əxz olunub. Hər halda müxtəsər şəkildə təqdim olunan məlumatlar əsasında belə bir fikir yürütmək olar ki, vaxtı ilə gənc müxbir Ulduz İmanovanın Elçin Məhrəliyevin istedadı, yaradıcılıq yolu haqqında öncəgörmə mülahizələrini həyat təsdiq edib.

Azərbaycan nağıllarında 40 rəqəmi məqsədin, məramın açılışını xarakterizə edir. 40 otaqdan ə tərəfə sirr qalmır. Zənnimcə, jurnalist Elçin Məhrəliyevin yazıçı Elçin Əlioğluna qədərki yolu üçün bu 40 il həqiqətləri təsdiq etməyə bəs edən vaxt ölçüsüdür.

Elə Ulduzun da jurnalistikadan yazıçılığa keçən yolunun 3zü də bu 40 illə əhtiva olunub.

"Mən aşığam Qarabağda" kitabı üçün düşüncələrimizin açımı da əslində elə 40 illik yola işıq salmaq mahiyyəti daşıyır.

31.05.2022

b) Vaqif Bəhmənli qırx il əvvəl

Ədəbi-mənəvi mühitin taleyi həm də bu mühiti düzgün qavrayan, görən, qavramları və görünəni olduğu kimi şərh edən, bir az da dəqiqləşdirsək, seçilmiş obyektin yolunu qabaqcadan aydın görməkdən çox asılıdır.

Çoxlu istedadlar olub ki, onları görən, vaxtında qayğı göstərən olmayıb. Beləliklə, kimsənin görmədiyi, tanımadığı istedadlar həyat yollarında elə dolaşıqlığa məruz qalıblar ki, izsiz, soraqsız yaddaşlardan itiblər. Ulduz İmanovanın əlimizdə olan ilk jurnalist yazılarını xarakterizə edəndə, təhlilə çəkəndə maraqlı mənzərə ilə qarşılaşırıq.

Bəzi yazılarında o, yazıçı təxəyyüllü publisist kimi görünür. Elə yazıları da var ki, şairanə duyğularla, poetik əhvalda qələmə alınıb. Və bu zaman onun sözə yönəlik ünvanını şair kimi təsəvvür edirik. Amma elə yazılar da var ki, ağır, karvanyollu təsvirlər onun yazıçı olacağına elə qabaqcadan zəmanət verir. Bütün bunlar öz yerində. Amma Ulduzun elə yazıları da var ki, dövrünün ədəbi-mənəvi mühitinə kifayət qədər işıq sala bilir. Hətta ədəbi tənqidin bu gün unutduğu elə sənətkarlarımız var ki, onların yaradıcılıqlarının ilkin mərhələsində hansı yollardan keçdiklərini, hansı yaradıcılıq iztiablarını təbiətlərində yaşadıqlarını biz məhz bu tipli yazılardan öyrənirik.

Kimsəyə sirr deyil ki, Vaqif Bəhmənli bu gün ədəbi mühitin kifayət qədər nüfuzlu, adlı-sanlı şairidir. O, bu ada da, bu sana da, bu şöhrətə də öz qələmi ilə, istedadı ilə nail olub. Ancaq əsas odur ki, ədəbi tənqid Vaqif Bəhmənlinin böyük ədəbi yola başladığı zamanı bir jurnalistikanın qeydə aldığı kardioloji xətlərlə əxz edə bilirik. Gənclik dövründə hər bir şair xüsusi həyəcanlarla yaşayır. Həyatının gənclik çağını yaşayan şairin həyəcanları çox vaxt qeyri-ritmik olur. Vaqif Bəhmənlidə də belədir. O, jurnalist olanda həyəcanları düz axarla gedir. Şairliyində isə xətlər kəskin şəkildə, təzadlı şəkildə dalğalar yaradır.

Vaqif Bəhmənli haqqında yazının müəllifi gənc jurnalistdir. Bir az da dəqiqləşdirsək, bəlkə də tələbədir. O, nə üçün, hansı səbəbdən Vaqif Bəhmənlini xüsusi obyekt seçib? Axı V.Bəhmənlinin özü də gəncdir. Əlbəttə, söhbət 38 il bundan əvvəldən gedir. Beləliklə, yetmişi haqlayan sənətkarın 38 il bundan əvvəlki taleyini yazıya gətirmək və 38 ildən sonra həmin proqnozların doğruluğunu təsdiq etmək sözün həqiqi mənasında müəllif öncəgörməsinin sərrastlığı ilə razılaşmaq deməkdir.

Az vaxt deyil. Bu qədər zaman ərzində ictimai quruluş dəyişib. Siyasi kataklizmlər baş verib. Zaman öz axarını ən müxtəlif məcralara yönəldib. Dağılmaqda olan Sovet quruluşun bərpası üçün çalışanlar olub. Ancaq bütün bunların heç birisi baş tutmayıb və tarix qanunauyğun axarına yönəlib.

Amma bir həqiqət öz axarından qalmayıb; istedad kimi parlayan Vaqif Bəhmənli həm jurnalist olaraq, həm də şair olaraq öz yolunda sabit-qədəm olub. Əsas da odur ki, Vaqif Bəhmənlinin bugünkü ədəbi taleyini yazıya başlanğıc zamanı ilə müqayisə edəndə görürük ki, o elə başlanğıcdaca qəbul etdiyi sağlam mənəvi kriteriyaları günümüzəcən qoruyub.

80-ci illərin əvvəllərində jurnalist kimi fəaliyyət göstərən Ulduz İmanova təsadüfi olaraq "Müxbir" jurnalına yazacağı məqalədə Vaqif Bəhmənlini əsas olaraq seçməyib. Görünür, 38 il bundan əvvəl də Vaqif Bəhmənli yaradıcılıq yolunda əsas ölçü kimi obyektivliyə əsaslanıb. Şübhəsiz, o dövrdə Ulduz İmanovanı da jurnalistikada müəlliflərin rəyə hadisələrinə obyektiv münasibəti daha çox maraqlandırıb. Səbəbi də budur ki, müəlliflər ona təlqin edirdi ki, jurnalistikanın hörmətə və nüfuzu obyektivliyə əsaslanan müəlliflərin qələmindən çox asılıdır. Görünür, elə bu səbəbdən də Ulduz İmanova V.Bəhmənlinin jurnalistik fəaliyyətini yazısı üçün işıqlandırma obyekti seçib.

Ulduz İmanova yazısına stereotip - şablon cümlələrlə başlamır. Seçdiyi ədəbi qəhrəmanı haradan, necə tanıyırsa, sözə də oradan başlayır.

Bu gün fəxarətlə demək olar ki, Ulduz İmanova jurnalist kimi yazacağı müəllifi ilkin olaraq şair kimi təqdim edir və bu gün onun Vaqif haqqındakı öncəgörməsi özünü kifayət qədər doğruldur. Özü də "...Bir də cəsarətli olması" adlı yazısının əvvəlindəcə Vaqif Bəhmənlinin şair obrazını kifayət qədər dolğunluğu ilə yaradır:

"Əvvəlcə şair kimi tanımışam onu. Və misralarından başlanan tanışlığımızdan sonra belə bir imzanı ardıcıl olaraq izləməyə başlamışam: Vaqif Bəhmənli - şair-jurnalist. Hər iki adın məsuliyyəti böyükdür. Amma bu böyüklüyü dərk edəndə, amalın, məsləyin aydın olanda səni bir-birindən nurlu sabahlar gözləyir...

İlk tərcümeyi-halını da şeirlərindən öyrənmişəm: "Anamdan başqa arxamda duran olmayıb, Birinci kitabım çıxanda kürəyimə vuran olmayıb". Bəli, bir əğsaçlı ana xeyir-duası ilə Bəhmənli kəndindən gur şəhərə yollanan Vaqif misra-misra oxucu qəlbinə yol tapır. Onun şeirlərindəki vətəndaşlıq duyğusu, el-obaya bağlılıq dərhal oxucunun diqqətini cəlb edir (bəlkə də belə olmasaydı o, bir kəndin adını özünə təxəllüs götürməzdi). Vaqif hər misrasında öz səsini, öz nəfəsini qorumaqla müasir poeziyamızın axarına qovuşmağa çalışır...". Təkcə bu mətn bəs edir ki, biz yazı müəllifinin gənc Vaqif Bəhmənli haqqında düşüncələrində nə qədər öncəgörmə baxımından haqqlı olduğunu təsdiq edək.

Hər bir müəllifin xüsusi tərcümeyihalı var. Bu xüsusi tərcümeyi-halın nə həyat faktlarına, nə də şəxsin ömürgün yoluna aidiyyəti yoxdur. Bu xüsusi tərcümeyi-hal mənəvi yaşamın yolunu yazıya gətirir.

Ulduz İmanova Vaqif Bəhmənli haqqında yazısının taleyini əslində Vaqif Bəhmənlinin şairliyi ilə bağlamaqla həll edir. Bizi düşündürən, diqqətimizi çəkən təkcə zaman məfhumu deyil, həm də ötüb-getmiş zamanda yaşamış adamların bu gün özünü doğruldan qənaətləridir.

Mən deyə bilmərəm ki, daha bir yüz il keçəndən sonra Vaqif Bəhmənli şair kimi daha çox xatırlanacaq, yoxsa jurnalistikada öz dəsti-xətti olan jurnalist-publisist kimi daha çox diqqəti cəlb edəcək. Görünür, bu məsələni aydınlaşdırmaq həmin yüz il bundan sonrakı dövrün xarakterindən çox asılıdır. Əlbəttə, V.Bəhmənlinin şairliyini kimsə inkar edə bilməz, özü də böyük şairliyini; amma hər halda, Çörçil müharibədən sonra jurnalistikadakı publisistik fəaliyyətinə görə Nobel mükafatına layiq görülüb. Əgər Vaqif Bəhmənlinin mətbuatda işlədiyi dövrdə yazdığı jurnalist yazılarını, publisistik qeydlərini araşdıran olsa, yəqin ki, müəyyən qənaətə gələr. Əsas da ona görə ki, zamana, dövrə hansı səviyyədə təsir göstərə bilib. Bir sözlə, hər bir müəllifin öz dövrünə, zamanına təsir gücü elə onun sözünün gücü deməkdir.

Vaqif Bəhmənli hələ gənclik illərindən "Sovet kəndi" qəzetində çalışdığı zamandan jurnalistik fəaliyyəti elə diqqəti cəlb etmişdi. Hiss olunurdu ki, o, sözə ayrıca güc sərf edir, varlığını sözlə savaşda səfərbərliyə almağı bacarır. Bunu da onun jurnalistik, publisistik fəaliyyətinin ilk peşəkar müşahideçisi "Sovet kəndi" qəzetinin baş redaktoru Nəriman Zeynalov qədərincə görə bilirdi.

Zamanına görə dövrün publisistik, jurnalistik fəaliyyət nəbzini tutmaq istəyən istedadlı jurnalistlərdən biri də, şübhəsiz, elə Ulduz İmanova idi. O, Vaqif Bəhmənlinin "Sovet kəndi" qəzetindəki fəaliyyəti ilə bağlı xüsusi məqamlara işıq salır: "Bu da "Sovet kəndi" qəzetinin redaktoru N.Zeynalovun fikri: *"Doğrusu, Vaqif haqqında danışanda ürəyim açılır. Dərhal onun bir-birindən maraqlı, oxunaqlı yazıları yadıma düşür. Amma sual versənə kə, hansı yazısına üstünlük verirəm? Onda tərəddüd edərəm, birbaşa cavab verə bilmərəm. Axı, o, bütün yazıları üzərində dönə-dönə işləyir, bəzi jurnalistlər kimi başqasının redaktəsinə möhtac olmur. Məncə Vaqifin yazıları oxunaqlı edən əsas cəhətlərindən biri də onun toxunduğu problemə, qaldırdığı məsələyə dərindən nüfuz edə bilməsidir. Bir də cəsarətli olması".* Yaxşıdır, ustad Nəriman Zeynalov Vaqif Bəhmənli haqqında bəlkə də o dövr üçün ilk dəfə tutarlı və dəqiq meyarla zamanın sınağından çıxa biləcək bir söz deyir.

Doğrudan da, jurnalist üçün əsas keyfiyyət istedad, zəhmət, intellekt - bütün bunlar vacibdir. Amma Nəriman Zeynalov zamanının çox böyük jurnalisti sözünün axırında jurnalist üçün meyar ola biləcək bir də "cəsarətli olmaq" etiketini unutmur. Həqiqətən, jurnalistin zamanın sınağından çıxmış birinci keyfiyyəti elə onun cəsarətli olmasıdır. Korrupsiya, terror, rüşvət qalmaqalları, qətllər, qərətlər haqqında jurnalist yazılarının bir çox sirləri açmasının ilkin mənbəyi jurnalistin cəsarətidir.

Jurnalist Ulduz İmanova sözünün canını araya-ərsəyə dəqiq faktlarla gətirir. Vaqif Bəhmənlinin nə qədər işdə göstərə bilirsə, bir o qədər adlı mühitində göstərir; onun yaradıcılıq laboratoriyasını dəqiq yaradıcılıq elementləri elə təsvir edir. Yazıda Vaqif Bəhmənlinin istifadə etdiyi sərlövhələri, tapındığı obrazları yada salır. Və bu qeydlərlə bizə göstərir ki, hələ bu günün məşhur şairi, publisisti zamanında necə məsuliyyətlə sözə yanaşıb. O yazır: *"V.Bəhmənlinin barəsində danışanların çoxu sözünə "Kəpənək qanadlarına qıymayın!" məqaləsi ilə başlayır. Həyat yoldaşı, jurnalist Rəhilə Quliyeva da... On altı günlük ömründə bəzənən qanadlarına zər düşən kəpənəyin dalınca xoşbəxt bir uşaq qaçır. Onu tutmaq istəyir. Bacarmır. Anasını çağırır. Sənə çıxan o gəlindən dünyada xoşbəxt ana varmı? Görəsən, bəs bütün analar xoşbəxtdirlərmi? Bax elə 14 yasında Abuzər müəllimə nişanlanan Mehpara baxtəvər anadırmı? Müəllifi də narahat edən bu sualdır. 17 yaşlı anamın oğluyla yardımsız qaldığım vəziyyət onun göndərdiyi şikayət məktubunda oxuyandan sonra ezamiyyətə gedən gənc atanın gözü önündə o baxtəvər ana, o gözəl səhnə canlanır. Proloqdan sonra "14 yaşlı qız nişanlanır", "Şillə", "...Və sonra", "Öz evində oğurluq", "Mehparə sinifdə qalır", "Asan yazılan arayış və yaxud epiloq" adlı yarımbaşlıqlarda Mehparənin - dünyanın isti-soyuğunu görməmiş bir qızın özündən çox yaşlı müəllimə necə nişanlandığının, necə saxta sənədlərlə kəbin kəsdirildiyinin, iki ildən sonra hansı çətinliklərlə rastlaşdığının, alçaldılıb təhqir edildiyinin şahidi oluruq. Müəllim adını daşıyan Abuzərin şərəfsizliyini, Mehparəni oğluyla atıb başqasıyla evləndiyini, ona nifrət edən Mehparənin sinifdə qaldığını, alaqədar təşkilatların saxtakarlığını görürük. Müəlliflə birlikdə təcrübəsiz Mehparənin, onun oğlunun taleyinə acıyırıq, təəssüflənirik, iztiablarına şərik oluruq. Vaqiflə bərabər, o xoşbəxt səhnəni xatırlayırıq. İstəyirik bütün analar, bütün qadınlar eləcə baxtəvər olsunlar. Bax, bunlara görə də "Kəpənək qanadlarına qıymayın!" adlı yazı hamının xoşuna gəlir. Bir də yığcamlığına görə. Adları çəkilən yarımbaşlıqlar altında gör neçə məqalə yazmaq olardı. Amma V.Bəhmənli bitkin, yığcam, oxucunu təsirləndirən bir yazı hazırlayıb. Arayıb-axtarıb, bütün faktları dönə-dönə yoxlayıb. Bəs Firəngiz kimdir? Mehparə taleli bir qız. Bircə günün içində sevib, sevilən, gəlin olan 17 yaşlı qız. Tofiq də onu şirin dillərlə aldadıb iki ildən sonra atıbdır. Özü də necə?.. Qızı Rəqsanayla kömək sizə qalıb. Redaksiyaya çətinliklə məktub yazıb, sonra hövsələsi çatmayıb, özü gəlib. Müxbir bundan sonra hər şeyi aydınlaşdırır, yazının da adını "İlk addımın acısı" qoyur. Hadisələr arasındakı bu oxşarlıq, eynilik onu çaşdırmır. Əksinə, maraqlı, bir-birindən fərqlənən məqalələr yazır. Mənəvi ləmini çamur bu hadisələrin iştirakçılarının. İlk addım atanları ehtiyatlı olmağa, yüz ölçüb, bir biçməyə, saflığa səsləyir. Özü də həyəcanla, narahatlıqla".* Bilərəkdən mətnə müdaxilə etmədik. Əsas da ona görə ki, gənc jurnalistin zamanına görə istedadı ilə parlamış olan jurnalist haqqında düşüncələrinin nə qədər obyektiv olduğuna bugünkü oxucunu razı salaq. Səmimiyyət naminə onu da qeyd etmək yaxşı olar ki, Vaqif Bəhmənli yazıdan-yazıya böyüyən müəllif olub. O, ilk yazısının üzərində dayanmayıb, hətta ən təqdir olunan yazısını belə növbəti yazı zamanı sadəcə qələm tərcübəsi hesab edib. Müəllif bu məqamları öz müşahidələri ilə ümumiləşdirə bilir. Biz yazıdan-yazıya dəyişən V.Bəhmənlini görürük.

(Davamı 7-ci səhifədə)

2. "MÜXBİR"İN ULDUZ DEBÜTÜ

2. "MÜXBİR"İN ULDUZ DEBÜTÜ

(Əvvəli 6-cı səhifədə)

Görünür, Ulduz İmanova "Müxbir" jurnalının mart 1984-cü il nömrəsində çap olunan qeydlərini elə həmin jurnalın sifarişi ilə yazıb. Ancaq yazının özü gəstərir ki, müəllif qəlbən, ruhən qəbul etmədiyi müəllifdən yazmır. O, seçdiyi müəllifi - yeni Vaqif Bəhmənlini qabaqcadan öyrənib, onu şair kimi qavrayıb, onu söz adamı kimi dərk edib, publisist kimi nəyə qadir olduğunu başa düşüb. Məhz öz yazısında da Vaqif Bəhmənlinin jurnalist obrazını elə bu səbəbdən uğurla yaradıb. Hətta öz qeydlərində Vaqif Bəhmənlinin məqalələrindəki, publisist yazılarındakı obrazlarla xarakterik münasibət də bildirir. Yəni həmin obrazların təbiətlərini də öz qeydlərinə gətirir.

Gənc jurnalist Vaqif Bəhmənli obrazlarını xarakterizə edərkən tə'fərrüata varmadan faktları elə şəkildə göstərir ki, oxucu Vaqif Bəhmənlinin problemini yazdığı adamların özlərini də tanıyır: *"Yazım, yoxsa yazmayım. Dəqiq deyə bilmərəm ki, Firəngiz bu sual barəsində neçə gün, yaxud neçə ay fikirləşib. Amma mən çox düşündüm. Hətta bu sətirləri yazanda da fikirləşirəm. Görəsən bu yazının xeyri olacaqmı? Hardasa ömür cığırında saf, müqəddəs ailədə necə dəyərlər, böyük həyat yolunda ilk addımlar atan bir cavanın qolundan tutacaqmı bu yazı?.." Bəlkə də Vaqif balaca Rəqsanəyə baxanda yenə o səhnəni xatırlayıb. Yadına Mehparənin atasız qalmış körpəsi, bir də öz oğlu Xəyyam, qızı Şəms düşüb...".* Yaxşıdır. Hələ bu gün bu qeydləri oxuyanda az qala Mehbaranın soağına düşmək istəyirik. Axtarmaq istəyirik ki, Rəqsanənin taleyi necə olub. Firəngiz harada qalıb. Digər adların heç birisi yadımızdan çıxmır. Yaddaşımızın qapısını sıcaq söz döyən adamları bu qədər canlı şəkildə ədəbi publisitikaya gətirmək müəllifdən xüsusi məharət tələb edir. Zənnimcə, bu keyfiyyət gənc jurnalistin təbiətindən boy göstərən yazıçılığı ilə bağlıdır. O, hətta kiminsə haqda yazanda belə jurnalist mövqeyindən daha çox həyata, hadisələrə yazıçı mövqeyindən yanaşır.

Ulduz İmanova Vaqif Bəhmənli haqqında dəqiq, aydın düşüncə ilə yazır. Nə qədər ədəbi qəhrəmanını bir gənc kimi xarakterizə etsə də, onun mənəvi mühitinin kamilliyini bəri başdan hiss edib duyur. Yoxsa ayrı cür o, Vaqif Bəhmənli haqqında bu cümlələri yaza bilməzdi: *"Mənəvi tərbiyə mövzusunda apardığı müsahibələri, sorğuları, yazıları çoxdur. "Sovet kəndi" qəzetinin mədəniyyət şöbəsinin müdiri V.Bəhmənlini ən çox bu mövzu narahat edir, ən çox...".* Bəli, həyat bütün qarışıqlıqları son nəticədə müəyyən harmoniyaya tabe edir. Həyat hadisələrinin ən dumanlı çağları belə son nəticədə bir aydınlığa qovuşur. Hətta bəzən six dumanlıqların dağılması üçün yetmiş il, yüz il də bəs eləmir. Amma son nəticədə aydınlıq labüddür. Çünki həqiqətlər əbədi qanrılardarda qala bilməz.

Gənc jurnalist təkcə Vaqif Bəhmənlinin əsərləri (yəni jurnalist yazıları) və onun ustadlarının haqqında qənaətləri ilə fikrini yekunlaşdırmır. Bütöv mənzərəni diqqətə çəkir və bu mənzərədə biz nə qədər Vaqif Bəhəmlinin ustadını - yeni Nəriman Zeynalovu görürükso, bir o qədər də onun ailə mühitini görürük, xanımı Rəhiləni görürük. Eyni zamanda V.Bəhmənlinin dövrünə, zamanına münasibətini göstərən yazılarını görürük. Bütün bunlar onu göstərir ki, gənc jurnalist Vaqif Bəhmənlini kifayət qədər dolğunluğ ilə bütöv portret şəklində təqdim edir. Gənc Ulduz İmanova yazır: *"Yazılarının hamısı axıcıdır, oynaqdır, xalq dilinə yaxındır. O gün Nəriman müəllim dedi ki, adam Vaqifin yazılarını oxuyanda elə bil ömrü bir gün də uzanır. Bəlkə poeziya ilə yaxın olduğuna görə belədir?.. Bilmirəm... Bəs, ömür gün yolnunmaqdadır.* Hər halda Ulduz İmanova doğru yazıb: *"Görən SSRİ Yazıçılar İttifaqının və SSRİ Jurnalistlər İttifaqının üzvü V.Bəhmənlinin özq nə demək istəyir? "Məni çox tərifləməyin..." Lapdan elə biri durdu məndən soruşdu ki, Vaqifin hansı cəhətləri daha çox yadında qalıb? Uşaqlarla əylənməyi, ümumiyyətlə uşaqları çox sevir. Yaxşı ailə başçısıdır, amma evin təsərrüfat işləriylə az maraqlanır".* Beləliklə, az qala, 40 il bundan əvvəki Vaqif Bəhmənlini jurnalist Ulduz İmanovanın elə o zaman aid olan təqdimatında təzədən gözlərimizin önündən keçirdik. Nəyin indiki günümüzlə uzlaşıb-uzlaşmadığını özümüz üçün aydınlaşdıra bildik. Əslində, təzadlı heç nə yoxdur. Çünki Vaqif Bəhmənli istedad bünövrəsinin üstündə dayanmışdı, zəhmətə güvənirdi. Səbəbi də o idi ki, o, jurnalist kimi *"haqqında yazdığı adamı hərtərəfli öyrənməyə çalışır. Ömrünügününü zərrə-zərrə, gilə-gilə sözlərin ömrünə calayır. İstəyir ki, onun yazdıqlarını oxuyanların ömrü uzansın, ayı-günü hesablasınlar, illəri saymasınlar. Yaş səddi olmasın onlarçün. Hamı bir-birini duysun, başa düşsün. Mirzə Cəlil onunçün əvəzedilməzdir, hem kəsə oxşamaq fikri olmayıb...".* Gənc jurnalist qeydlərinin sonunu sanki özünə sualla bitirir: *"Hamısını deyə bildimmi? Bilmirəm...".* Əlbəttə, bu, sual ritorikdir. Cavabı bizim hər birimizin qənaəti ilə bağlıdır. Az qala 40 il bundan əvvəl tanıdığımız Vaqiflə bu günkü Vaqifi müqayisədən gəldiyimiz nəticə bağlayır.

Ulduz İmanovanın uzun illər əvvəl Vaqif Bəhmənli haqqında yazdıqlarını da onun həyat yolu ilə müqayisədə nəzərdən keçirmək yaxşı olardı. **Vaqif Bəhmənli (Vaqif İttifaq oğlu Quliyev) 23 may 1955-ci ildə Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olub. 1972-ci ildə doğulduğu kənddə orta məktəbi bitirib. 1973-78-ci illərdə Azərbaycan Dövlət Universitetinin fakültəsində ali təhsil alıb. O, 1978-88-ci illərdə "Sovet kəndi" qəzetində şöbə müdiri, 1988-91-ci illərdə "Kommunist" qəzetində şöbə müdiri, "Vətən cəmiyyətinin odlar yurdu məcmuəsində" baş redaktor (1991-92), "Bərəkət" (sonradan "Həyat") qəzetində (1992-1994) baş redaktor, "Yazıçı" nəşriyyatında redaktor (1994), Gənclər və İdman Nazirliyində şöbə müdiri (1995-1997) və sonra bir çox qəzet və jurnallarda rəhbər və məsul vəzifələrdə çalışıb. Mədəniyyət və Turizm Nazirliyində şöbə müdiri (2006-2016) şöbə müdiri olub. Hazırda Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzinin direktor müavinidir. Vaqif Bəhmənli yeni ədəbi qüvvələrin mətbuata gəlməsində səmərəli fəaliyyət göstərib. Öz təcrübəsini gənclərə həvəslə öyrədib.**

Vaqif Bəhmənli fəal jurnalist fəaliyyətindən başqa cəmiyyətin həyatı ilə bağlı yazıları ilə də tanınır. Poeziya və publisistik əsərlərindən ibarət 45-dən çox kitabın müəllifidir. Dəfələrlə poeziya və ədəbiyyat festivallarında, ədəbi-elmi konfrans və simpoziyumlarda iştirak edib. İlk məqalə və şeirləri 1970-ci ildə Füzuli rayonunda çıxan "Araz" qəzetində işıq üzü görüb. O gənclyindən üzü bəri dövri mətbuatda ardıcıl çıxış edib, radio və televiziya kanallarında verilişlər aparıb. Haqqında yazılmış açıq ensiklopediya materialında yaradıcılıq yolunun mahiyyəti belə şərh olunur: "Vaqif Bəhmənli obrazlı düşüncə şairidir. Türk bədii düşüncəsinin ənənələrinə arxalanmaq, insanın hiss və duyğularını canlandırmaq üçün yeni poetik məqsədlərə sənətkarlıqla cəhd etmək, özünəxas bədii deyim tərzi, güclü kolorit onun yazdıqlarını başqalarından fərqləndirir. Şairin yaradıcılığı haqqında çoxsaylı araşdırmalar aparılmış, yaradıcılıq yolunu işıqlandıran məqalələr mətbuatda dərc edilmişdir. "Azərbaycan" foto-albumunun, "Azərbaycan Dövlət Kitabı"nın mətn müəlliflərindən biridir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin mədəniyyətin inkişafına yönəlik fəaliyyətindən bəhs edən "Vətənin ilhamı - ömürdən reportaj", ulu öndər Heydər Əliyevin adını ədədiləşdirən, ünvanları canlandıran "Heydər Əliyev adına" əsərlərində Vaqif Bəhmənli bu cəhdi, həm də çox araşdırılan mövzulara tamamilə yeni nəzər nöqtəsindən baxmışdır". Bu məlumatlar kiçik improvizələrdə açıq ensiklopediyadan götürülüb. Müxtəsər məlumatlar əsasında bu qənaətə gəlmək olar ki, Ulduz İmanovanın obrazını yaratdığı gənc jurnalist Vaqif Bəhmənli zəngin yaradıcılıq yolu keçib. Əməkdar İncəsənət xadimidir. Bir sözlə, gənc jurnalistin, əgər belə demək mümkünsə, etimadını doğruldub.

Bir daha xatırlatmaq yerinə düşər ki, Ulduz İmanova Vaqif Bəhmənli haqqında bu qeydləri "Müxbir" jurnalının mart 1984-cü il nömrəsində çap etdirib.

Yazı və yaradıcılıq... Zənnimcə, elə həm də bəxt işidir. Nə qədər zəhmətlə, istedadla bağlıdırsa, bir o qədər də tale ilə bağlıdır.

Amma birmənalı şəkildə deyirəm ki, həyatda və təbiətdə qanunauyğunluqdan kənar heç nə yoxdur.

01.06.2022